# Onlar hələlik 7 DOST-dur

## Amma yaxın zamanda 17 olacaqları gözlənilir

**Azərbaycan dövlətinin daxili siyasətinin prioritet istiqamətlərindən biri sosial sahədir. Sosial siyasət əhalinin ayrı-ayrı qruplarının həyat səviyyəsinin yüksəldilməsinə, sosial vəziyyətinin yaxşılaşdırılmasına yönələn tədbirlər sistemidir. Bu siyasət özünü sosial proqramlarda və əhalinin cəmiyyətdəki münasibətlərinin tənzimlənməsində göstərir.**



Ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas hədəfləri sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin əldə edilməsidir. Dövlət başçısının fərmanı ilə 2018-ci ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi bu sahədə qarşıya qoyulan tələblərə cavab verir. Agentliyin yaradılmasında məqsəd əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılmasıdır. DOST innovasiyanın tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsi, habelə süründürməçilik hallarının qarşısının alınmasında mühüm rol oynayır.

"ASAN xidmət"dən sonra Azərbaycanın daha bir brendinə çevrilən DOST mərkəzləri bu gün ölkəmizin dövlət sosial xidmətləri sahəsində vətəndaş məmnunluğu yaradıb. DOST konsepsiyasını yüksək qiymətləndirən Prezident İlham Əliyev təsadüfən vurğulamayıb: "Bizim siyasətimiz demək olar ki, DOST mərkəzlərində öz əksini tapır - islahat, innovasiya, korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizə, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti. Yəni bu mərkəzlər müasir Azərbaycanın simasını əks etdirir və ölkəmiz məhz bu yolla inkişaf etməlidir. Müasirlik, yenilik, islahatlar, gənclərin bu işlərə böyük dərəcədə qoşulması ölkəmizin inkişafına xidmət göstərəcək". Prezidentin də dediyi kimi, belə mərkəzlərin yaradılması Azərbaycanda sosial siyasətin mahiyyətini göstərir. Sadə bir rəqəmlə bunu belə ifadə etmək olar: milyonlarla insanın xidmətlərindən istifadə etdiyi DOST mərkəzlərində vətəndaş məmnunluğunun səviyyəsi 92 faizin üstündədir.

DOST Agentliyi dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, operativ, şəffaf, müasir, innovativ əsasda təqdim olunmasını təmin edir. Bu gün ölkəmizdə 7 DOST mərkəzi fəaliyyət göstərir. Sonuncu mərkəz keçən ilin avqustunda Bərdə şəhərində açılıb. Qarabağ Regional DOST Mərkəzi adlanan bu qurum 9 şəhər və rayonu əhatə etməklə 900 mindən çox şəxsə xidmət göstərir. İşğaldan azad edilmiş bölgələrimizdə DOST xidmətlərinin qurulması istiqamətində isə ilk addım kimi 2022-ci ilin may ayında Zəngilanın Ağalı kəndində ilk "Smart DOST" xidmət məntəqəsi istifadəyə verilib. Ümumilikdə 2025-ci ilədək ölkənin bütün rayonlarını (Naxçıvan Muxtar Respublikası da daxil olmaqla) əhatə edəcək 17 regional DOST mərkəzinin və 55 rayon filialının açılması nəzərdə tutulub.

Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanda vətəndaş məmnunluğuna xidmət edən, müasir sosial trendlərə çevik uyğunlaşan, şəffaf, sosial ədalət prinsiplərini qoruyan bu xidmət sektoru sosial siyasət fəlsəfəsinin ana xəttini təşkil edir. Məhz bunun nəticəsində DOST 2023-cü ilin mart ayında Beynəlxalq Sosial Təminat Assosiasiyasına (ISSA, BSTA) üzvlüyə, Avropa Sosial Şəbəkəsinə isə (ESN) üzvlüyə namizəd kimi qəbul olunub. Elə buradaca DOST Agentliyinin beynəlxalq uğurlarını qeyd edək. Agentlik Avropa üzrə "Yaxşı Təcrübə Mükafatı - 2022" müsabiqəsinin qalibi olub və dünyada məşhur olan LRQA sertifikatlaşdırma (Böyük Britaniya) təşkilatı tərəfindən 4 istiqamət üzrə beynəlxalq ISO sertifikatlarına layiq görülüb. Onu da qeyd edək ki, Beynəlxalq Sosial Təminat Assosiasiyası (BSTA) tərəfindən keçirilən müsabiqənin mükafatları Estoniyanın Tallin şəhərində "Avropa üçün Regional Sosial Təminat Forumu" çərçivəsində təqdim edilib.

Ölkəmizdə könüllülük hərəkatının genişlənməsində mühüm rola malik olması ilə seçilən "Könüllü DOST" proqramına da maraq çoxdur. Könüllülər DOST mərkəzlərində vətəndaşların qarşılanması, xidmət pəncərələrinə yönləndirilməsi, habelə insan axınının idarə edilməsi və məlumatlandırılması kimi işlərdə agentliyin etibarlı köməkçisidirlər. Könüllülük fəaliyyəti eyni zamanda gənclərin xidmət sahəsində təcrübə, işgüzar vərdişlər qazanmalarına, fərdi inkişaf və karyera yolunda ilk uğurlu addım atmalarına imkan yaradır. "Könüllü DOST" proqramı məzunlarından artıq bir qismi agentliyin və DOST mərkəzlərinin əməkdaşları kimi fəaliyyət göstərir. Beynəlxalq səviyyədə də "Könüllü DOST" proqramı yüksək qiymətləndirilir. Layihə Beynəlxalq Sosial Təminat Assosiasiyasının xüsusi mükafatlarına layiq görülüb. Proqram "Global HR Summit 2023" beynəlxalq müsabiqəsinin "Ən yaxşı Korporativ Sosial Məsuliyyət Strategiyası" kateqoriyası üzrə qalibi olub.

Hazırda bir çox ölkə DOST təcrübəsini öyrənərək onu tətbiq etməyə maraq göstərir. Qurumun beynəlxalq səviyyədə tanıdılması üçün Türkiyə, Pakistan, Rumıniya, Monteneqro, Serbiya, Xorvatiya, Böyük Britaniya, Moldova, Ukrayna, Estoniya, Litva, Özbəkistan, Tacikistan və Qazaxıstanın müxtəlif dövlət qurumlarının rəsmiləri, o cümlədən SESRIC, WIPO kimi beynəlxalq təşkilatların rəhbər vəzifəli şəxsləri qurumun fəaliyyəti və elektron xidmətlər təcrübəsi ilə əyani tanış olublar. Üstəlik, DOST-un elektron xidmətləri barədə təqdimatlar Belarus, Özbəkistan, Estoniya, Koreya, Rumıniya, Macarıstan, Avstriya, Braziliya, Misir, İraq və Səudiyyə Ərəbistanının əlaqədar qurumlarına təqdim edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Moldovanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi arasında imzalanmış tədbirlər planı çərçivəsində isə ilin sonuna kimi Moldovada DOST-a uyğun modelin tətbiqinə başlanılması nəzərdə tutulur.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 22 may, № 106.- S.6.

yaradılarkən Türkiyə faktoru nəzə-